"

Akademik Tarih ve Düşünce Dergisi Academic Journal of History and Idea
Special Issue
Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research (15 October 2025)
Derleme Makalesi | Review Article
Geliş tarihi |Received:16.08.2025
Kabul tarihi |Accepted:20.10.2025
Yayın tarihi |Published:15.10.2025

**Nəzakət Yusifova**

***https://orcid.org/0009-0008-4800-033X***
*PhD in Pedagogy, Associate Professor, Nakhchivan State University, Azerbaijan, yusifovanezaket233@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Yusifova, N. (2025). Müxtəlif Fənlərin Tədrisində Xalq Pedaqogikası Nümunələrindən İstifadə İmkanları. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (Special Issue: *Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research*), 200-203.

# Müxtəlif Fənlərin Tədrisində Xalq Pedaqogikası Nümunələrindən İstifadə İmkanları

***Xülasə***

*Bu məqalədə müxtəlif fənlərin tədrisində xalq pedaqogikası nümunələrindən istifadə imkanları araşdırılmışdır. Xalq pedaqogikasının əsas məqsədi gənc nəslin milli-mənəvi dəyərlər, əxlaqi keyfiyyətlər və yaradıcı təfəkkür ruhunda formalaşmasını təmin etməkdir. Araşdırma göstərir ki, atalar sözləri, bayatılar, tapmacalar, inanclar və yanıltmaclar kimi folklor nümunələrinin tədris prosesinə daxil edilməsi şagirdlərin dünyagörüşünü genişləndirir, onların dərsə marağını və öyrənmə motivasiyasını artırır. Bu materiallardan məqsədyönlü istifadə fənlərin məzmununu zənginləşdirir, biliklərin asan mənimsənilməsinə və uzunmüddətli yadda qalmasına şərait yaradır. Xalq pedaqogikası vasitələrinin inteqrasiyası həm elmi, həm də tərbiyəvi baxımdan müasir tədris prosesinə mühüm töhfə verir və şagirdlərin şəxsiyyət kimi formalaşmasında pedaqoji əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *Xalq Pedaqogikası, Təhsil, Etnopedaqogiya, Tədris, Milli-Mənəvi Dəyərlər.*

# The Use of Samples of Folk Pedagogy in Teaching Various Subjects

***Abstract***

*This article explores the possibilities of using samples of folk pedagogy in the teaching of various subjects. The main purpose of folk pedagogy is to ensure the formation of the younger generation in the spirit of national and moral values, ethical qualities, and creative thinking. The study shows that the inclusion of folklore samples such as proverbs, bayatis, riddles, beliefs, and tongue twisters in the teaching process broadens students' worldview, increases their interest in lessons, and enhances their learning motivation. Purposeful use of these materials enriches the content of subjects, facilitates the comprehension and long-term retention of knowledge. The integration of folk pedagogical elements into education contributes significantly to the modern teaching process both scientifically and educationally, playing an*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*essential role in the moral and intellectual development of students and in shaping them as complete personalities.*
***Keywords:*** *Folk Pedagogy, Education, Ethnopedagogy, Teaching, National and Moral Values.*

## Giriş

Müasir dövrdə Azərbaycan təhsil sistemində aparılan islahatlar milli dəyərlərə əsaslanan tərbiyə modelinin yaradılmasını zəruri edir. Xalq pedaqogikasının öyrənilməsi və onun təlim-tərbiyə prosesinə tətbiqi bu istiqamətdə mühüm elmi və praktik əhəmiyyət daşıyır. Xalqın mənəvi-mədəni irsi, adət-ənənələri, folklor nümunələri və müdrik fikirləri gənc nəslin milli kimlik və əxlaqi dəyərlər əsasında formalaşmasına xidmət edən əvəzsiz qaynaqlardır (Əliyev, 1995). Xalq pedaqogikasının əsas məqsədi xalqın əsrlər boyu topladığı həyat təcrübəsini, əxlaqi normaları və mənəvi idealları gələcək nəsillərə ötürməkdir. Bu irs xalqın dinində, dilində, ədəbiyyatında, sənətində, mərasim və bayramlarında, oyun və inanclarında, həmçinin folklor örnəklərində öz əksini tapır (Həşimov & Sadiqov, 1993). Atalar sözləri, bayatılar, tapmacalar, zərb-məsəllər və nağıllar uşaqların dünyagörüşünün genişlənməsində, əxlaqi keyfiyyətlərin formalaşmasında və milli düşüncənin aşılanmasında mühüm rol oynayır (Hüseynzadə, 1985). Tədris prosesində xalq pedaqogikası nümunələrindən məqsədyönlü şəkildə istifadə edilməsi şagirdlərin təlim marağını artırmaqla yanaşı, milli-mənəvi dəyərlərə hörmət və vətənpərvərlik hisslərinin inkişafına da xidmət edir (Yusifova, 2010). Bu baxımdan, müxtəlif fənlərin — xüsusilə də ədəbiyyat, biologiya, tarix və incəsənət dərslərində — xalq pedaqogikasına əsaslanan materiallardan istifadə geniş imkanlar açır. Beləliklə, xalq pedaqogikasının müasir təhsil sistemində tətbiqi, onun tərbiyəvi və metodik potensialının araşdırılması Azərbaycan pedaqoji elminin aktual istiqamətlərindən biridir və milli kimliyin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir (Əliyev, 1997).

### Müxtəlif fənlərin tədrisində xalq pedaqogikası nümunələrindən istifadə imkanları

Xalq pedaqogikası tərbiyə məsələləri üzrə zəhmətkeş kütlələrin baxış, fikir, ideya, qayda-qanun, təcrübə və adət-ənənələrinin məcmusudur. Onun mövzusu tərbiyə, obyekti isə yaşından və cinsindən asılı olmayaraq şəxsiyyətdir, insandır. Tərbiyə dedikdə müxtəlif sahələrdə qazanılmış təcrübə və ideyaların gənc nəslə ötürülməsi başa düşülür. Həmin təcrübələr adət-ənənələrdə, maddi mədəniyyət abidələrində, xalq mahnılarında, nağıllarda və digər folklor nümunələrində öz əksini tapır (Həşimov & Sadiqov, 1993). Azərbaycan xalq pedaqogikasının bizə gəlib çatan nümunələri müdriklik xəzinəsidir. Onlarda xalqın kamal dünyası, əxlaqi və etik tövsiyələri, nəsihətamiz baxışları əks olunur. Bu materialların hər birində həyatın və tərbiyənin müxtəlif məsələləri üzrə

xalqın real qənaət və təsəvvürləri ifadə edilir. Tarix boyu olduğu kimi, bu gün də xalq pedaqogikası gənc nəslin nəcib, insani keyfiyyətlər əsasında yetişməsində mühüm rol oynayır. Xalq pedaqogikası nümunələri insan mənəviyyatının zənginləşməsinə xidmət edir. Azərbaycan xalqı əməksevərlik, insanpərvərlik, ailə və cəmiyyətə hörmət, sadəlik, təvazökarlıq kimi keyfiyyətləri yüksək qiymətləndirib və ideal insan obrazı kimi təqdim edib (Əliyev, 1997). Bu dəyərlərin təlim prosesinə gətirilməsi həm milli-mənəvi, həm də pedaqoji baxımdan əhəmiyyətlidir.

Müasir ümumtəhsil məktəblərində fənlərin tədrisi zamanı xalq pedaqogikasından faydalanmaq üçün geniş imkanlar vardır. Müəllim folklor nümunələrindən və etnopedaqoji materiallardan məqsədyönlü şəkildə istifadə etməklə şagirdlərdə fənnə maraq oyada bilər. Bu yanaşma təlim prosesini emosional və maraqlı edir, öyrənilən mövzuların daha asan mənimsənilməsini təmin edir, həmçinin şagirdlərdə əqli qabiliyyət və yaradıcı düşüncəni inkişaf etdirir (Yusifova, 2010).

Botanika fənninin tədrisində bitkilərlə bağlı xalq müdrikliyi, inanclar və atalar sözləri əxlaqi tərbiyə vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Belə materiallar şagirdlərdə əməyə məhəbbət, təbiətə qayğı, vətənə sevgi kimi mənəvi keyfiyyətləri formalaşdırır (Hüseynzadə, 1985). Eyni zamanda, zoologiya dərslərində heyvanlarla bağlı xalq inanclarından və tapmacalardan istifadə şagirdlərin marağını artırır, müşahidə qabiliyyətini və düşünmə çevikliyini inkişaf etdirir (Çəpkəzov, 1981). Bu cür materiallar təkcə biliyi dərinləşdirmir, həm də uşaqlarda təbiətə, canlılara və ətraf aləmə qarşı məsuliyyət hissini gücləndirir.

Beləliklə, etnopedaqoji materiallar təlim-tərbiyə prosesinin bütün öyrədici, tərbiyələndirici, inkişafetdirici və motivləşdirici funksiyalarının həyata keçirilməsində mühüm rol oynayır. Müxtəlif fənlərin tədrisində xalq pedaqogikasına əsaslanan nümunələrdən düzgün və məqsədyönlü istifadə şagirdlərdə milli-mənəvi dəyərləri formalaşdırmaqla yanaşı, idrak proseslərini də gücləndirir (Əliyev, 1995; Yusifova, 2010).

**Nəticə**

Aparılan araşdırmalar göstərir ki, xalq pedaqogikası nümunələri təlim və tərbiyə prosesində mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalqının əsrlər boyu formalaşmış tərbiyəvi ənənələri, folklor nümunələri və etnopedaqoji təcrübəsi gənc nəslin milli-mənəvi dəyərlər ruhunda formalaşmasında əvəzsiz rola malikdir. Xalq hikməti ilə zəngin olan atalar sözləri, bayatılar, tapmacalar, inanclar və yanıltmaclar yalnız bilik vermir, eyni zamanda uşaqlarda təbiətə, əməyə, insana və vətənə sevgi aşılayır. Müxtəlif fənlərin tədrisində bu materiallardan məqsədyönlü və yaradıcı şəkildə istifadə edilməsi şagirdlərin təfəkkürünü genişləndirir, mənəvi-əxlaqi

keyfiyyətlərini möhkəmləndirir və öyrənməyə maraqlarını artırır. Beləliklə, xalq pedaqogikası nümunələrinin müasir təhsil prosesinə inteqrasiyası təkcə milli-mənəvi dəyərlərin qorunmasına deyil, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmasına xidmət edən mühüm pedaqoji vasitə kimi dəyərləndirilməlidir.

**Ədəbiyyat**

Əliyev, İ. (1995). *Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti.* Azərnəşr.

Əliyev, İ. (1997). *Təlim-tərbiyə işlərində etnopedaqoji materiallardan istifadə.* Gənclik Nəşriyyatı.

Azərbaycan folkloru antologiyası (II kitabda) I kitab. (1963). (Toplayanı və tərtib edəni E. Axundov; redaktor Q. Qasımzadə). Azərnəşr.

Həşimov, Ə. Ş., & Sadiqov, F. B. (1993). *Azərbaycan xalq pedaqogikası.* Maarif Nəşriyyatı.

Hüseynzadə, Ə. (1985). *Atalar sözləri.* Yazıçı Nəşriyyatı.

İpə-sapa düzülməmiş incilər. (1981). *(Tərtib edəni B. Çəpkəzov).* Azərnəşr.

Yusifova, N. (2010). *Fənlərin tədrisində (botanika, zoologiya) xalq pedaqogikası materiallarından istifadə imkanları. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri,* (4). Naxçıvan.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir*